

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 19 (23.431)

*31 yanvar 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli ni qəbul edib.

Görüşdə Azərbaycanda qarşıdan gələn növbədənkənar parlament seçkiləri mövzusuna toxunulub, seçkilərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirilib, bu seçkilərdə xeyli sayda namizədlərin qeydə alınmasının, müşahidəçilərin fəal iştirakının önəmi vurğulanıb.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan rəhbərliyi seçki prosesinin ədalətli, şəffaf, Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində bütün tədbirləri həyata keçirib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 30 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələr verilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşı da vardır.

**Səhət İsa oğlu Həbibbəyli**

gömrük xidməti general-leytenantı ali xüsusi rütbəsi ilə təltif edilmişdir.

## Şura iclası keçirilib



Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının şura iclası keçirilib. İclasda geniş hesabat məruzəsi ilə çıxış edən təşkilatın sədri Qadir İbrahimov 2019-cu ildə görülmüş işlər, buraxılan nöqsanlar və qarşıda duran vəzifələr barədə danışıb. Bildirib ki, muxtar respublikamızın son illər davamlı, çox sürətlə və hərtərəfli inkişaf etməsi Culfa rayonunun timsalında da özünü göstərib. Belə ki, həyata keçirilmiş abadlıq-quruculuq və yaşıllaşdırma tədbirlərindən bu rayona da xeyli pay düşüb. Kənd mərkəzlərində ərazi ilk təşkilatları üçün hərtərəfli iş şəraiti yaradılıb. Hazırda təşkilat bu il ölkəmizdə, muxtar respublikamızda keçiriləcək parlament seçkiləri ilə bağlı işlərini təqvim planına uyğun aparır.

Qeyd olunub ki, rayon təşkilatı, ərazi ilk təşkilatları 2019-cu ilin əvvəlindən yerlərdə partiya işlərini inkişaf etdirməyə, müasir tələblər səviyyəsində qurmağa çalışıb.

5700 nəfər Yeni Azərbaycan Partiyası üzvünün fəaliyyət göstərdiyi rayon təşkilatı 54 kənd ərazi təşkilatını özündə birləşdirir. Bu təşkilatlarda partiya üzvlərinin 2733-ü qadın, 1682-si gəncdir. Ərazi ilk təşkilatlarında gənc və yaradıcı qüvvələrin Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilməsinə diqqət artırılıb. 83 nəfər partiya üzvlüyünə qəbul edilib.

Rayon təşkilatının Gənclər Birliyi 2019-cu ildə fəaliyyətini canlandırıb, təbliğat-təşkilati işlərdə fəal iştirak edib. Gənclərin tarixi abidələrə, muzeylərə ekskursiyaları və gəzintiləri təşkil olunub. Onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi sahəsində müxtəlif tədbirlər, yarışlar, görüşlər keçirilib. Təşkilatın Qadınlar Şurasının da fəaliyyəti qənaətbəxş olub.

Qadir İbrahimov diqqətə çatdırıb ki, 2019-cu ildə işdə buraxılmış bəzi nöqsan və çatışmazlıqlar rayon təşkilatının idarə heyətinin iclasında geniş müzakirə və təhlil olunub, onların aradan qaldırılması üçün müvafiq qərarlar qəbul edilib.

Qeyd olunub ki, ərazi ilk təşkilatları 2020-ci ildə fəaliyyətlərini daha da canlandırmalı, təşəbbüskarlıq artırılmalıdır. Partiyaya yeni qəbul olunanlarla ideoloji iş gücləndirilməli, üzvlərlə fərdi işə üstünlük verilməlidir.

Şura iclasında Yeni Azərbaycan Partiyası Rayon Təşkilatı Gənclər Birliyinin üzvü Vüsal Nəcəfov, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Yaycı kənd ərazi ilk təşkilatının sədri Vaqif Abdullayev çıxış ediblər.

Tədbirdə bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

**Alim AĞAYEV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən "Dövlət orqanlarında kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları" mövzusunda maarifləndirici seminar keçirilib.*

## Maarifləndirici seminar təşkil olunub



Komissiyanın sədri İsmayıl Qəribli tədbiri giriş sözü ilə açaraq bildirib ki, dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında düzgün tətbiqi ilə bağlı mütəmadi olaraq maarifləndirici tədbirlər həyata keçirilir. 2019-cu ildə komissiya tərəfindən dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların dövlət qulluqçuları tərəfindən öyrənilməsi ilə bağlı təşkil olunan 13 seminarda 1238 dövlət qulluqçusu iştirak edib. Lakin buna baxmayaraq, bəzi hallarda qanunvericiliyin tələblərinin pozulması halları müşahidə olunur. Belə ki, 2019-cu il ərzində komissiya tərəfindən 6 dövlət orqanının normativ-hüquqi aktlara uyğun olmayan 7 qərarı ləğv etdirilib. Keçirilən seminarın əsas məqsədi qanunvericiliyin tələblərinin dövlət qulluqçularının diqqətinə çatdırılmasıdır.

Sonra komissiyanın əməkdaşı Orxan Abdullayev hazırlanmış slayd vasitəsilə "Dövlət orqanlarında kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları"nı izah edib. Seminarda kargüzarlığın aparılması işi, o cümlədən sənədlərin hazırlanması, qeydiyyatı, hərəkəti, icrası, uçotu və arxivə verilməsi, habelə vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və cavablandırılması, vətəndaşların qəbulunun təşkil edilməsi, müraciətlərlə bağlı sənədlərin qovluqlaşdırılması və saxlanılması qaydaları, o cümlədən dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması barədə geniş məlumat verilib. Çıxışda bu proseslər zamanı müşahidə olunan nöqsanlara da toxunulub.

Sonda müzakirə aparılıb, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər sahibkarlıq fəaliyyətini təşviq edir və əhalinin vergi yükünü azaldır

*Vergi qanunvericiliyi sahəsində kompleks tədbirlərin nəticələrinə və gözləntilərinə nəzər yetirsək, görərik ki, gələcəkdə də bu kimi tədbirlərin davam etdirilməsi, xüsusilə optimal vergi sisteminin tətbiq edilməsi, nümunəvi vergiödəyicilərinə güzəştlərin təqdim olunması, iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişaf etdirilməsi istiqamətlərində Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi aktualdır.*



2020-ci il yanvar ayının 1-dən qüvvəyə minən Vergi Məcəlləsində, ümumilikdə, 60 maddədən ibarət olmaqla, 154 maddə və yarımmaddəsində dəyişikliklər edilib. Onlar əsas yeddi istiqaməti – ədalətli rəqabətin şərti olan bərabər və şəffaf fiskal mühitin təmin edilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, sahibkarların inzibatçılıq yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergitutma bazasının genişləndirilməsi, beynəlxalq məlumat mübadiləsi üzrə öhdəliklərin yerinə yetirilməsini özündə birləşdirir.

Qəbul edilən dəyişikliklərə uyğun olaraq sahibkarların inzibatçılıq yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq olunması istiqaməti üzrə Vergi Məcəlləsində mühüm dəyişikliklər edilib. Belə ki, elektron vergi hesab-fakturası və elektron qaimə-faktura vahid sənədlə, yəni elektron qaimə-faktura ilə əvəz edilib, vergi orqanında uçotda olmayan şəxslərdən alınmış mallara görə tərtib edilən "Malların alış aktı" ciddi hesabat blankı elektronlaşdırılıb. Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükü azaldılıb.

Quş ətinin satışının əlavə dəyər vergisindən azad edilməsi müddəti – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə artırılıb. Əlavə olaraq quş ətinin satışı ilə yanaşı, heyvan ətinin də satışı 2020-ci il yanvarın 1-dən 4 il müddətinə ƏDV-dən azad edilib. Heyvan və quş ətlərinin kəsilmə və dondurulma əməliyyatları istisna olmaqla, emal əməliyyatlarına məruz qalan heyvan və quş ətinin təqdim edilməsinə əlavə dəyər vergisindən azadolma şamil olunmur.

Cari il yanvar ayının 1-dən fiziki şəxslər tərəfindən yaşayış sahəsinin vergidən azad olmaqla, təqdim edilməsinə tələb olunan 5 illik qeydiyyat müddəti 3 təqvim ilinə endirilib. 1 yanvar 2020-ci il tarixdən Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən fiziki şəxslərin azı 3 təqvim ili ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu mənzilinin satışı vergidən azaddır. Bu baxımdan 3 ildən artıq müddətdə yaşayış yeri üzrə qeydiyyatda olduğunuz mənzilin satışından alqı-satqı müqavilələsini təsdiq edən notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergi tutulmur. Digər bir güzəşt isə fiziki şəxslərin xüsusi mülkiyyətində yaşayış sahəsində yaşayış yeri üzrə qeydiyyat müddətindən və ya qeydiyyata düşüb-düşməməsindən asılı olmayaraq, həmin yaşayış sahəsinin təqdim edilməsi zamanı 30 kvadratmetrə qədər sahə sadələşdirilmiş vergidən azad edilir. Bu zaman fiziki şəxs 3 təqvim ilindən az müddətdə qeydiyyatda olduqda yaşayış sahəsi təqdim edərkən həmin yaşayış sahəsinin 30 kvadratmetr hissəsi çıxılmaqla qalan sahənin hər kvadratmetrinə sadələşdirilmiş vergi hesablanacaq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il martın 18-də Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Fərmana əsasən 2020-ci ildən etibarən icbari tibbi sığorta sisteminin Naxçıvan Muxtar Respublikasının bütün ərazisində tətbiqinə başlanılıb. Vergi Məcəlləsində edilən dəyişikliklərdən biri məhz bununla bağlıdır. Belə ki, 1 yanvar 2020-ci il tarixdən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi sığorta xidmətlərinin göstərilməsi 1 il müddətinə əlavə dəyər vergisindən azad edilib.

Dəyişikliklərdən biri də sabit qəbz almaqla vergi ödəyən fiziki şəxslərin sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğinin azaldılmasıdır. Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olan şəxslərə münasibətdə bu şəxslərin ödəyəcəyi aylıq sabit məbləğ 30 manatdan 20 manata, fərdi foto, audiovideo xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət göstərən şəxslərə münasibətdə isə 30 manatdan 15 manata endirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# “Naxçıvan ədəbi prosesi – 2019” mövzusunda elmi konfrans

*AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə “Naxçıvan ədəbi prosesi – 2019” mövzusunda keçirilən elmi konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.*

Bildirib ki, ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatı yeni mərhələyə qədəm qoyub. Ümummilli lider Heydər Əliyev həm klassik, həm də müasir ədəbiyyatımızın öyrənilməsi və təbliğini daim diqqət mərkəzində saxlayıb, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin Vətənimizdən uzaqlarda da tanınmasına nail olub. Ulu öndər klassik və müasir şairlərimizin yubileylərinin keçirilməsinə, onların adlarının əbədiləşdirilməsinə, əsərlərinin çap olunmasına, xarici dillərə tərcümə edilməsinə xüsusi diqqət və qayğı ilə yanaşıb, folklor nümunələrimizin nəşr olunması, tanıdılması baxımından mühüm qərarlar verib, fərman və sərəncamlar imzalayıb. Müstəqillik illərində şair və yazıçıların, incəsənət xadimlərinin mükafatlara, fəxri adlara layiq görülməsi də ulu öndər siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir.

Qeyd edilib ki, sovet dönəmində Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımızın az sayda kitabı çap olunduğu halda, son 15-20 ildə yüzlərlə ədəbi nəşr işıq üzü görüb. Təqdirəlayiq haldır ki, bu gün naxçıvanlı qələm sahibləri də onlara göstərilən yüksək qayğıya cavab olaraq yeni, dəyərli əsərləri ilə oxucularını sevindirirlər.

AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli “Naxçıvan ədəbi mühitinin tədqiqi yeni mərhələdə” mövzusundakı çıxışında qeyd edib ki, son onilliklərdə muxtar respublikada ədəbiyyat, incəsənət, teatr sahələrində yüksəliş, xüsusilə nəzərə çarpır. Ədəbiyyatşünaslıq elmi istiqamətində həyata keçirilən müxtəlif tədbirlər Naxçıvanda elmə, ədəbi mühitə, onun inkişafına necə həssaslıqla, diqqətlə yanaşıldığını göstərir.



Vurğulanıb ki, Azərbaycan ədəbi prosesinin öyrənilməsi, onun ədəbiyyatşünaslıqda əksini tapması təzkirəçiliklə bağlıdır. Orta əsr təzkirəçiləri hər hansı şair və yazıçı ilə bağlı məlumat verərkən onun müridi, əsərləri, əlaqədə olduğu qələm sahibləri barədə də bəhs ediblər ki, bu da ədəbi mühitin yaranmasının ilkin cücərtiləri sayılıb. Görkəmli maarifçi Firudun bəy Köçərli 1926-cı ildə çap etdirdiyi “Azərbaycan ədəbiyyatı tarixi materialları” adlı kitabında ədəbiyyatımızı ədəbi dairələr, coğrafi ədəbi arazilər üzrə tədqiq edib. Onlardan biri və əhəmiyyətlisi hesab olunan Naxçıvan ədəbi mühiti burada yaşayan elmi-ədəbi qüvvələr, ədəbiyyatşünaslar, şairlər, yazıçılar tərəfindən öyrənilib. Bu, özünü iki istiqamətdə göstərib. Birinci, Naxçıvan ədəbi mühitinin tanınmış şair və yazıçıları haqqında portret-oçerklər yazılıb; ikinci, onların əsərləri ilə bağlı resenziyalar qələmə alınıb, ara-sıra icmal ədəbi tənqidi nümunələr də yaradılıb. Sonrakı dövrdə də ədəbi mühitin öyrənilməsi ilə bağlı müəyyən irəliləyişlər əldə olunub.

Diqqətə çatdırılıb ki, müstəqillik illərində Naxçıvan ədəbi mühitinin kompleks, sistemli şəkildə öyrənilməsinə geniş imkanlar açılıb. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Naxçıvan Bölməsi ilə birgə “Müstəqillik dövrü Naxçıvan ədəbi mühiti” adlı monoqrafik nəşrinin hazırlanması istiqamətində müəyyən işlər görüb. Əminliklə demək olar ki, işıq üzü görəcək bu nəşr Naxçıvan ədəbi mühitinin peşəkar surətdə tədqiqinə, təbliğinə geniş imkanlar açacaq. Bununla həm də ədəbi mühit ilk dəfə olaraq icmal tənqidindən monoqrafiya tənqidinə keçid edəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid “Dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr” mövzusunda çıxış edərək bildirib ki, ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin daha da dərinləşdirilməsi, Azərbaycançılıq məfkurəsinin mənimsədilməsi ulu öndər Heydər Əliyev siyasətinin əsas istiqamətini təşkil edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli dövlət xadiminin əbədiyaşar ədəbiyyat və mədəniyyət təlimini yeni epoxanın prinsiplərinə uyğun əlavə müddəalarla zənginləşdirərək müasir dövrün ədəbiyyat siyasətini müəyyən edib.

Bildirilib ki, muxtar respublikada 2019-cu ildə ədəbiyyatın inkişafı sahəsində Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi ilə bağlı tədbirlər planının təsdiq edilməsi, Ərtoğrol Cavidin və Hüseyn İbrahimovun 100 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, Yazıçılar Birliyinin fəaliyyətinin inkişafı üçün 25 min manat vəsaitin ayrılması və digər tədbirlər həyata keçirilib. Həmçinin tanınmış yazıçıların, yaradıcı gəncliyin istedadlı nümayəndələrinin mükafatlandırılması ulu öndər tərəfindən əsası qoyulmuş siyasətin konkret əməli işlərlə davamıdır. Bu tədbirlər sırasında muxtar respublikada yaşayan yazıçıların sosial vəziyyətinin yaxşılaşdırılması üçün mükafatların ayrılması, bədii nəşrlərin çapına dəstək məqsədilə Şamil Zamanın tərcüməsində fransız yazıçısı Qustav Floberin “Salambo” romanının, Əliyar Yusiflinin və Kamil Arazın əsərlərinin nəşri də yer alıb.

Qeyd olunub ki, 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən irfan ədibi Nemətullah Naxçıvaninin əsərlərinin tərcüməsi və nəşri, Ərtoğrol Cavidin yaradıcılığına həsr olunmuş bir monoqrafiya və iki kitabın, Yazıçılar Birliyi üzvlərinin ədəbi yaradıcılığını özündə əks etdirən “Naxçıvanım – göz nurum” adlı almanaxın nəşri və həyata keçirilən digər tədbirlər Ali Məclis Sədrinin dahi öndər Heydər Əliyevin əsasını qoyduğu ədəbi inkişaf təliminin davamıdır. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin fəaliyyətinin əsaslı şəkildə qurulması, qədim diyarımızda Ədəbiyyat Muzeyinin, eləcə də görkəmli ədəbiyyat xadimlərinin ev-muzeylərinin tikilib istifadəyə verilməsi söz sənətinin qorunmasında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Bütün bunlar təsdiq edir ki, ölkədə, eləcə də muxtar respublikamızda ədəbiyyat və mədəniyyət sahələri müstəqillik dövrünün tələblərinə uyğun inkişafının yeni mərhələsini yaşayır.

Konfransda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev “Naxçıvanda ədəbi proses”, AMEA-nın müxbir üzvü, Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru Əbülfəz Quliyev “2019-cu ildə ədəbi-elmi əlaqələr”, həmin institutun direktor müavini, professor Hüseyn Həşimli “Tənqid və ədəbi proses”, institutun şöbə müdirləri, filologiya üzrə fəlsəfə doktorları Ramiz Qasımov “Bədii nəsrin inkişaf meyilləri”, Elxan Məmmədov “Poeziya: axtarışlar, tendensiyalar”, institutun böyük elmi işçiləri Aygün Orucova “2019-cu ilin dramaturgiyası”, Nərgiz İsmayılova “Bədii tərcümə məsələləri” mövzularında çıxış ediblər.

**Nail ƏSGƏROV**

# Gənclər Günü ilə bağlı tədbirlər keçirilib



*Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 2 fevral – Gənclər Gününə həsr olunmuş tədbirdə əvvəlcə “Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda hazırlanan slayda baxılıb.*

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva gəncləri əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, əsası ulu öndər tərəfindən qoyulan gənclər siyasəti bu gün muxtar respublikamızda uğurla davam etdirilir, gənclərin yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov qeyd edib ki, bu gün dövlətin apardığı gənclər siyasəti muxtar respublikamızda da keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Ötən illər ərzində gənclərin təhsili, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif tədbirlər həyata keçirilib. Göstərilən qayğının nəticəsində gənclər muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha da fəal iştirak edir, onlar milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı, dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşırlar.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin direktoru, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev çıxışında bildirib ki, Azərbaycan gəncliyinin ölkəmizin ictimai həyatının bütün sahələrində fəal iştirakı üçün yaradılan əlverişli şərait Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının fəaliyyətinə də təsir göstərib. Son illər ərzində partiya sıralarına qəbul edilən intellektual, bilikli, Vətənə, dövlətçiliyə sadiq gənclərin sayı xeyli çoxalıb. Hazırda partiyanın Naxçıvan Şəhər Təşkilatının 18 min 405 üzvü vardır ki, onların da 11 min 6-nı, yəni 59 faizini gənclər təşkil edir.

Sonra Naxçıvan şəhərinin ictimai həyatında fəallıq göstərən bir qrup gəncə mükafatlar təqdim olunub.

Gənc tərbiyəçi Afaq Hümbətova gənclər adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

Tədbir bədii kompozisiya ilə başa çatıb.

**Nail ƏSGƏROV**

* * *

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə 2 fevral – Gənclər Günü münasibətilə muxtar respublikada ilk dəfə olaraq sağlamlıq imkanları məhdud gənclər üçün bayram tədbiri təşkil edilib.*



Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, bu gün gənclərin muxtar respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakı təmin edilir, gənc istedadlara dövlət qayğısı günbəgün artırılır. Onlar arasında fiziki imkanları məhdud gənclər də var. Bu kateqoriyadan olan gənclərin problemləri ilə daim maraqlanılır, hərtərəfli köməklik göstərilir.

Muxtar respublikada ötən il əsası qoyulan Sosial Könüllülük Akademiyasından danışan nazir qeyd edib ki, könüllü gənclər öz fəaliyyətlərini milli və humanist dəyərlər əsasında təşkil etməklə qısa müddət ərzində sosial qayğıya ehtiyacı olan şəxslərlə həmrəy olub və bu istiqamətdə keçirilən tədbirlərdə həvəslə iştirak ediblər.

Tədbirdə çıxış edən Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev muxtar respublikada gənclərin iştirakı ilə həyata keçirilən layihələrdən danışıb.

Gənclər adından çıxış edən Hüseyn Qurbanov göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Tədbirdə sağlamlıq imkanları məhdud gənclərin uğur yolunu əks etdirən videoçarxlar nümayiş etdirilib, gənclər tərəfindən hazırlanmış bədii yaradıcılıq nömrələri ifa olunub.

Sonda fərqlənənlər hədiyyə və fəxri fərmanlarla təltif ediliblər.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Elmi-Tibbi Şuranın Rəyasət Heyətinin iclası keçirilib.***

# Elmi-Tibbi Şuranın Rəyasət Heyətinin iclası olub

Nazir müavini Samrat Gəncəyeva nazirliyin 2006-cı il sentyabrın 14-də yaradılmış Elmi-Tibbi Şurası haqqında ətraflı məlumat verib. Qeyd edib ki, muxtar respublikada fəaliyyət göstərən tibb ocaqlarının, o cümlədən həkim və tədqiqatçıların əhalinin sağlamlığına yönəldilmiş elmi fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə yaradılan şura ötən müddətdə müəyyən nəticələrə nail olub. Səhiyyə və tibb elmi sahəsində qarşıda duran məsələlərin həlli üzrə səlahiyyətli məsləhətçi orqan kimi muxtar respublika əhalisinin sağlamlığının qorunması istiqamətində müvafiq idarə və təşkilatlarla əlaqəli fəaliyyət göstərib, aparılan elmi-tədqiqat işlərinin əsas istiqamətlərini müəyyən edib.

Bu illər ərzində şuranın xətti ilə elmi-praktik konfransların keçirilməsi diqqət mərkəzində saxlanılıb, hazırlanan kitab və monoqrafiyalar müzakirə edilib, nəşri tövsiyə olunub və oxucuların istifadəsinə verilib. İnnovativ inkişafın dəstəklənməsi sahəsində işlər, davamlı tibbi təhsilin tətbiqi, startap layihələrinin dəstəklənməsi diqqət mərkəzində saxlanılıb.

Samrat Gəncəyeva şuranın fəaliyyətinin yeni tələblər səviyyəsində qurulmasının zəruriliyini qeyd edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin 24 yanvar 2020-ci il tarixli əmri ilə Elmi-Tibbi Şuranın Rəyasət Heyətinin 7 nəfərdən ibarət yeni tərkibi təsdiq olunub. “Diaqnostika Müalicə Mərkəzi” publik hüquqi şəxsin Cərrahiyyə şöbəsinin müdiri, tibb elmləri doktoru İsa Abdullayev şuranın sədri vəzifəsinə təyin edilib.

Sonra Elmi-Tibbi Şuranın Rəyasət Heyətinin üzvlərindən Süleyman Cəfərov, Abbas Əliyev, Qoçəli Dünyamalıyev, İlkay Əliyeva və başqaları çıxış ediblər.

İclasda şuranın işinin, səhiyyənin inkişafı ilə bağlı mövcud problemlərin müzakirələrinin təşkili, hər təqvim ilinin sonunda şuranın işi haqqında ümumiləşdirilmiş illik hesabatın hazırlanması barədə tapşırıqlar verilib.

Rəyasət heyətinin iclasında şuranın idarə heyətinin yeni tərkibinin müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Müəllimlərə sertifikatlar verilib

*Dünən Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərində çalışan 29 ibtidai sinif müəlliminə sertifikatlar təqdim olunub.*



Təqdimatda institutun və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları iştirak ediblər. İnstitutun prorektoru Azad Novruzov diplomdan sonrakı təhsilin təşkili yollarından, Naxçıvan Təhsil Nazirliyi ilə bu sahədə aparılan əməkdaşlıqdan danışıb. Bildirilib ki, ibtidai sinif müəllimləri üçün təşkil edilmiş kurs “İbtidai siniflərdə ana dili fənnindən şagirdlərdə oxuyub-anlama bacarıqlarının inkişaf etdirilməsi yolları” mövzusuna həsr olunub. Kurs uğurla başa vurulub, qarşıya qoyulmuş məqsədə nail olunub.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Abdulla Əsgərov, institutun professoru Akif İmanlı və başqaları çıxış edərək təlimin əhəmiyyətindən danışıblar.

Sonra kurs iştirakçılarına sertifikatlar təqdim edilib.

**Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti**

*“Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir”, – deyərək Azərbaycan gəncliyinə etimad göstərən ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin prinsip və məqsədləri isə ölkəmizin xoşbəxt gələcəyinə hesablanıb. Ölkə başçısının “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı, gənclər haqqında imzaladığı sərəncamlar, aparılan uğurlu islahatlar cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaradır, onların potensialının üzə çıxarılmasını dəstəkləyir.*

# Gənclər siyasətinin prinsip və məqsədləri xalqımızın xoşbəxt gələcəyinə hesablanıb

Qədim Nuh yurdu, Vətənimizin ayrılmaz guşəsi Naxçıvanda da gənclərin sağlam, vətənpərvər ruhda böyüməleri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakının təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Sevindirici haldır ki, naxçıvanlı gənclər də bu tədbirlərin əhəmiyyətini dərk edir, müxtəlif sahələrdə qazandıqları uğurlarla dövlətə, dövlətçiliyə bağlılıqlarını, Vətənə sadiqliklərini nümayiş etdirirlər.

Belə gənclərdən biri də kiçik yaşlarından memarlığa böyük marağı olan ***Anar Sadiqov****dur*. O, Naxçıvan



Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsini Memarlıq ixtisası üzrə bitirib. Birinci kursda oxuyarkən ərsəyə gətirdiyi layihələr ali təhsil ocağında təşkil olunan sərgilərdə nümayiş etdirilərək uğur qazanıb. İstedadlı gənc tələbəlik illərində muxtar respublikada keçirilən bir sıra müsabiqələrdə maraqlı layihələri ilə iştirak edib. “Günəş enerjisi ilə işləyən elektrik dirəkləri”, Culfa rayon mərkəzi stadionu və Naxçıvançayın sahilindəki Tennis kortu ilə bağlı layihələri reallaşıb. Ötən illər ərzində gənc memar özünü həvəskar kimi fotoqrafiya sənətində də sınayıb və çəkdiyi şəkillərlə bir sıra müsabiqələrdə iştirak edib. “Naxçıvanın turizm imkanları”, “Naxçıvan Gənclər Paytaxtıdır” müsabiqələrində I yer tutub, diplom və qiymətli hədiyyələr qazanıb. 2017-ci ilin yekunlarına görə “İlin fəal gənci” nominasiyası üzrə qalib olan Anar 2018-ci ildə əlamətdar hadisələrlə bağlı muxtar respublikamızda keçirilən tədbirlərdə fəal iştirak edib, hazırladığı “Naxçıvan Gənclər Paytaxtıdır” loqosu böyük maraqla qarşılanıb.

Ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirən Anar Sadiqov bir müddət “Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətində memar-dizayner vəzifəsində çalışıb, ötən ilin dekabr ayından isə həmin müəssisədə baş memar kimi fəaliyyət göstərir. 2019-cu il digər naxçıvanlı gənclər kimi, Anarın da həyatına yaddaqalan hadisələr bəxş edib. Muxtar respublikada ilk dəfə keçirilən “Yaradıcı gənclər festivalı”na o da qatılıb. Anarın festivalda nümayiş etdirilən 5 layihə, 1 maket, 1 loqo və 20 fotosu maraqla qarşılanıb və gənc memar festivalın “Foto” nominasiyası üzrə qalibi olub. Onun ən böyük uğuru isə ötən ilin iyun ayına təsadüf edib. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi münasibətilə foto və memarlıq işlərindən ibarət “Bura Naxçıvandır” adlı fərdi sərgisi təşkil olunub. Sərgidə 95 foto və memarlıq işi yer alıb. Hazırda Anar 3 layihə üzərində çalışır.

O deyir ki, bu gün muxtar respublikamızda yaradıcılıqla məşğul olan gənclərə böyük meydan açılıb. Onlar da yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışır, maraqlı layihələr hazırlayırlar. Anar onu da xüsusi vurğulayır ki, 2016-cı ildə Gülüstan türbəsinin bərpadan sonra açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc memarlarla söhbəti yaddaşında dərin iz buraxıb. O da layihələri muxtar respublika rəhbərinin verdiyi dəyərli tapşırıq və tövsiyələr əsasında hazırlamağa çalışır. İnanır ki, gələcəkdə daha böyük layihələrlə insanlara estetik zövq bəxş edəcək.

Muxtar respublikada uğurları ilə seçilən gənclərdən biri də ***Murad Babayev****dir*. O, Naxçıvan Dövlət Universitetində bakalavr və magis-



tratura təhsili alıb. Gənc rəssamın əsərləri tələbəlik illərində universitetdə, Türkiyənin Qars şəhərindəki sərgidə nümayiş etdirilib. Rəssamlar Birliyində isə fərdi sərgisi açılıb. 2011-ci ildən Azərbaycan və Naxçıvan Rəssamlar birliklərinin üzvü olan Murad Babayev Naxçıvan Dövlət Texniki Kollecində, Heydər Əliyev adına Hərbi Liseydə müəllim və rəssam işləyib. Fəaliyyətinə görə 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülüb.

İxtisası üzrə təsviri sənətin müxtəlif sahələrinə müraciət edən gənc rəssam dekorativ-tətbiqi sənət növü olan metal üzərində bədii döymə sənəti ilə, o cümlədən rəngkarlıq, qrafika sahəsi ilə yanaşı, teatr dekorasiyasına da müraciət edir. Belə ki, o, bir sıra tamaşaların quruluşçu rəssamı olub.

Murad Azərbaycanın müxtəlif bölgələrində, həmçinin İranda, Fransada, Türkiyədə keçirilən sərgilərdə iştirak edib. 2016-cı ildə o, Bakıda reallaşan Gənclərin II Forumunun iştirakçısı olub. Türkiyənin Fethiye bölgəsində 2018 və 2019-cu illərdə keçirilən I və II Beynəlxalq Sualtı Rəsm festivallarında ölkəmizi layiqincə təmsil edib. Ayrı-ayrı illərdə isə təşkil olunan “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm festivallarında öz əsərləri ilə rəsmsevərləri sevindirib. Gənc rəssam bu uğurları dövlət qayğısından bəhrələnərək qazandığını deyərək dövlətimizə minnətdarlığını bildirir. Murad yaradıcılıq axtarışlarını davam etdirəcəyini, sənətsevərlərin qarşısına yeni əsərlərlə çıxacağını söyləyir: – Çalışıram ki, əsərlərim insanlarda ən gözəl hisslər yaratsın, onları biganə və soyuq olmamağa, yaşanan hər bir anı qiymətləndirməyə çağırsın.

***Nailə Məmmədli*** Babək rayonunun Şəkərabad kəndindən olan fəal gəncdir. Bir sıra təşkilatlarda




könüllü kimi uzun müddət fəaliyyət göstərib. Dəfələrlə Naxçıvanla bağlı layihələr hazırlayıb Azərbaycan Respublikasının Gənclər Fonduna təqdim edib. Naxçıvanla bağlı layihələrinə görə təşəkkürnamə ilə təltif olunub. Naxçıvanın turizm potensialının əksini tapdığı “Beynəlxalq turizm modeli Naxçıvanda” adlı startap layihəsi Azərbaycan Respublikasının Gənclər Fondunun XIII qrant müsabiqəsində qalib olub.

Onun dedikləri: – Naxçıvan şəhərindəki Gənclər Mərkəzində açılışı olan layihənin əsas məqsədi muxtar respublikanın zəngin turizm potensialını dünya ictimaiyyətinə çatdırmaq və gəncləri turizmin davamlı inkişafında iştiraka cəlb etməkdir. Zəngin coğrafi landşafta malik muxtar respublikada mədəni, dini, tarixi və təbiət abidələrinin zənginliyi, ekoturizmin, aqroturizmin fəaliyyəti üçün əlverişli şərait vardır.

Düşünürəm ki, muxtar respublikamızda turizmin davamlı inkişafına yardım edən layihələr, turizm sənayesinin müxtəlif sahələrinə dəstək, turizm resurslarının müəyyənləşdirilməsi, gənclər arasında qeyri-formal turizm təhsilinin təşkilində belə layihələrin mühüm rolu vardır. Gələcək planlarımda bir gənc kimi doğma yurdum Naxçıvanın təkcə ölkəmizdə deyil, bütün dünyada təbliğini həyata keçirə biləcək layihələr hazırlamaq əsas yer tutur.

*Tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olan gənclərin sağlam və intellektual yetişdirilməsi hər bir dövlətin əsas strateji hədəflərindən sayılıb. Onların vətənpərvərlik ruhunda tərbiyə olunması isə mənsub olduqları xalqın rifahının yüksəlməsi, ölkənin çiçəklənməsi deməkdir. Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan gənci belə güclü, qüdrətli dövlətin vətəndaşı olmağı ilə qürur duyur, respublikamızın daha da güclənməsinə, qüdrətlənməsinə öz töhfələrini verməyə çalışır.*

**Ramiyyə ƏKBƏROVA**
**Nail ƏSGƏROV**
**Güntac ŞAHMƏMMƏDLİ**

*Xalq təqvimi*

# Qədim xalq ənənəsindən günümüzə doğru – Kiçik çillə və Xıdır Nəbi mərasimi





*Türk xalqlarında mövcud olan qədim mifoloji düşüncəyə görə, qış xalqın təqvimində dövrlərə – çillələrə bölünür. Azərbaycan ərazisində bəzi təsəvvürlərdə qış qoca qarı şəklində də təqdim olunur. Belə deyərlər ki, qış Böyük çillə, Kiçik çillə və Boz ay adlarında üç oğlu olan qoca qarıdır. Dekabr ayının 20-də daxil olan Böyük çillə yanvar ayının 31-i gecəsi öz yerini Kiçik çilləyə verir. Fevral ayının 1-dən etibarən Kiçik çillə, necə deyərlər, öz hökmünü göstərməyə başlayır. Qışın ikinci mərhələsi sayılan bu dövrdə hava, adətən, Böyük çillə ilə müqayisədə çox soyuq keçir. Elə xalq arasında da deyilir: “Əsas şaxta Böyük çillədən sonra olur, yəni Kiçik çillədə. Bu vaxt hava çox sərt olur. O qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donur. 20 günlük Kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır. Bu vaxt həm də günlər uzanır”.*

Xalqın yaddaşında bəzən iki qardaş, bəzən də iki bacı kimi təsvir edilən Böyük və Kiçik çillələr bir-birinə qarşı qoyulur. Böyük çillə nə qədər yumşaq təbiətli obrazlaşdırılırsa, Kiçik çillə onun əksinə olaraq öz təbiəti etibarilə sərt, ərköyün obraz kimi xarakterizə edilir. Maraqlı cəhətlərdən biri də odur ki, xalq özünün şərə, pisliyə münasibətini də milli təfəkküründəki Kiçik çillə ilə bağlı poetik tərzdə ifadə edir. Bəzi informatorlar belə deyərlər ki, evin, ailənin kiçik övladı kimi, Kiçik çillə də öz ərköyünlüyünü nümayiş etdirir. Bu ərköyünlüyü poetikləşdirən xalq ona animist yanaşmasını belə ifadə edir:

*Kiçik çillə...*
*Boyu bir belə...*
*Hikkəsi bir belə...*
*Gəlişi oldu*
*Hayınan.*
*Gedişi oldu*
*Vayınan.*
*Əlində qırmanc*
*Eli-günü yandırdı,*
*Neçə günahsız doqqaz bağladı,*
*Neçə alaqapı*
*Sındırdı.*
*Kəsdi neçə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın...*

Kiçik çillənin ilk onuncu günü Xıdır Nəbi mərasimi qeyd olunur. AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin də etnoqrafik tədqiqatlara əsasən qeyd etdiyi kimi, Naxçıvan ərazisinin bir sıra kəndlərində və Naxçıvan şəhərində fevral ayında, yəni “qışın oğlan çağında”, “Kiçik çillə tüğyan edən” vaxt “Xıdır Nəbi” adı ilə bilinən mərasim çox təntənə ilə qeyd edilir.

Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, bayram Xızır Peyğəmbərin şərəfinə keçirilir. Xalq yaddaşında mövcud olan inanca görə, Xıdır Nəbidən üç gün əvvəl, üç gün də sonra yel əsər. Bu yel “Xıdır yeli” adlanar, çox da güclü olar. Yel əsməyə başlayanda hər tərəf toz-torpağa bürünər. Xalq söyləmələrinə görə, bu toz-torpaq Xıdırın əfsanəvi atını çapmasından qopan tozdur. Xıdır öz gəlişini belə bildirər. Üç gün sonra əsən yel Xıdırın getdiyini bildirər. Yenə hər tərəf toza, dumana bürünər. Aləmə bolluq, bərəkət, istilik, yaşıllıq bəxş edən Xıdır özü yaşıl geyimli, atı isə boz rəngdədir.

Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində Xıdır Nəbi mərasimində ən çox sevilən nemət buğda qovurulmuşudur. Bu, xalq təqvimi dövrünün simvolik yeməyi kimi məşhur olan qovutun hazırlanması mərasiminin özəlliyini vurğulayır. Undan və şərbətdən hazırlanan qovut istilikyaradan yemək kimi ona görə hazırlanır ki, soyuq, sərt keçən çillə bu istilikdən “qorxsun”. Bu da insanların “ərköyün və ziyankar” Kiçik çillənin onlara, təsərrüfata vuracağı ziyanın qarşısını almaq istəyini ifadə edir. Havaların olduqca soyuq keçməsindən ehtiyatlanan etnos təbiətin ona xoş davranması üçün qurbanvermə, itaətetmə rituallarını həyata keçirirdi. Bu ritualların müəyyən elementləri hazırda qovutun hazırlanması mərasimində özünü qoruyub saxlamaqdadır.

Qovut hazırlayan qadınlar Kiçik çillə girəndən buğda tədarükünü apararlar. Beləliklə, buğda qovurular. Qovurulan buğda əl dəyirmanında döyülür. Döyülən buğda una çevrilsə də, iri dənələrin qalması qovutu daha dadlı edər. Bu unun üzərinə yağ, şərbət də əlavə olunar, əldə sıxılmaqla balaca kündə və oval şəklində forma verilər. Əvvəllər qovut üçün seçilən buğda şirin buğda növündən olardı və ona şərbət əlavə edilməzdi. Belə qovut daha dadlı olardı. Hazırlanan qovut kiçik qablarda evin dörd küncünə qoyulur. Etiqada görə, Xıdır Nəbi gecə gəlib qovuta barmaq basa. Onun izinə barmağın basdığı qovutu gələn ilə saxlayarlar. Bu, bərəkət rəmzi hesab olunmaqla Xıdırın həmin evə ruzi, bolluq arzusunu ifadə edən inancdır. Bu baxımdan xalq arasında bərəkətli olan ruzi, tükənməz vardövlət haqqında belə deyərlər: “Buna Xıdırın əli dəyib”.

Əvvəllər Xıdır Nəbi bayramı yalnız qadınlar tərəfindən icra edilərdi. Naxçıvan Muxtar Respublikası ərazisində bu bayramın əsas icraçıları indi də qadınlardır. Belə ki, mərasimin xoş keçməsini, ilin bərəkətli, xeyirli olmasını arzulayan qadınlar evlərdə təmizlik işləri apararar, qonşu və qohumlarda olan qadınlar bir evə toplaşıb nəğmələr oxuyar, şirniyyatlar bişirərlər. İnanca görə, insanlar üçün Tanrıdan bolluq diləyən Xıdır obrazı təmiz olan evdə çox qalar. Həm də həmin mərasim dönəmində insanlar bir-biri ilə mehriban münasibətdə olmalıdır.

Türk xalqlarında olan mifik inanca görə, Xıdır Nəbinin iki qardaşı da var. Yəni Xıdır Zinda, Xıdır İlyas və Xıdır Nəbi üç qardaşdırlar. Xıdır Zinda çətinlikdə olanlara Tanrıdan aman, rəhm diləyər. Xıdır İlyas sudan insan üçün təhlükə yarananda köməyə çağırılar. Xıdır Nəbi isə qıtlıqdan, kasıblıqdan əziyyətə düşənə Tanrıdan kömək istəyər. Həmin mifik inancın qalıqları bu gün də yaddaşlarda qorunan bir kəlamda belə ifadə olunur: “İşlərin çətinlikdədirsə, Xıdır Zindanı çağır. Suda boğulanda, ya da susuzluqdan əziyyət çəkəndə Xıdır İlyası, kasıbsansa, ruzin yoxsa, Xıdır Nəbini səslə”. Təsadüfi deyil ki, bəzi türk xalqları tərəfindən, eləcə də Azərbaycanın müəyyən bölgələrində Xıdır Nəbi mərasimi “Xıdırəlləz” də adlandırılır.

Muxtar respublikamızın ərazilərindən topladığımız inanc nümunələrinə əsasən Xıdır Nəbi mərasiminin fevral ayının 10-na qədər mövcud olan ilk cümə axşamında qeyd olunmağı məqbul sayılır. Bu da dini faktorların xalq mərasimlərinə, mərasim yaddaşına təsirinin nəticəsidir.

Ümumiyyətlə, Xıdır mifik türk təfəkkürünün məhsulu olan obrazdır. Kiçik çillənin gətirdiyi soyuq havadan, şaxta-borandan qorxu, onun qarşısını almaq üçün qədimdən indiyədək gəlib çıxan ayinlərin icrası, yaşıllıq, istilik, bolluq gətirən Xıdıra xoş münasibət arxaik təsəvvürlər sisteminin müasir dövrdə yaşayan izləridir. Bütün bunlar da qədim türk dünyagörüşünün ifadəçisi kimi böyük mahiyyət kəsb etməkdədir. Sevindirici haldır ki, qədim diyarımızın sakinləri xalqımızın zəngin adət-ənənələrinə, milli dəyərlərinə hər zaman həssaslıqla yanaşdığı kimi, xeyirxahlıq, ruzi-bərəkət, əmin-amanlıq diləkli Kiçik çillə və Xıdır Nəbi mərasimini də əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürərək qoruyub yaşatmağa müvəffəq olmuşlar.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## İdman federasiyasında ilin yekunları müzakirə edilib

*Naxçıvan Muxtar Respublikası Stadionunun inzibati binasında Boks Federasiyasının ötən ilin yekunları və qarşıda duran vəzifələrə bağlı yığıncağı olub.*

Yığıncağı giriş sözü ilə açan federasiyanın sədr müavini Məmmədcəfər Əliyev çıxış edərək bildirib ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində bütün sahələr kimi, bədən tərbiyəsi və idman da inkişaf etməkdədir. Diyarımızda beynəlxalq yarışların keçirilməsi, idmançılara və məşqçilərə müxtəlif mükafat və adların verilməsi Naxçıvanda idmana və idmançılara göstərilən diqqətin bariz nümunəsidir. Həmin siyahıda Boks Federasiyasının məşqçi-müəllimlərinin və idmançıların da adlarının olması muxtar respublikada bu idman növünün inkişafı və kütləviliyinə nail olunmasının göstəricisidir.



Sonra Məmmədcəfər Əliyevin 2019-cu ildə görülən işlər və keçirilən yarışlar barədə hesabat çıxışı dinlənilib. Bildirilib ki, ötən il federasiyanın nəzdində fəaliyyət göstərən qrupların sayı 37, idmançıların sayı isə 500-ə yaxın olub.

Qeyd edilib ki, boksçularımız il ərzində 26 müxtəlif idman tədbirində iştirak ediblər. Onlar Azərbaycan çempionatları və beynəlxalq yarışlardan, ümumilikdə, 12 medal qazanıblar ki, bunların da 4-ü qızıl, 4-ü gümüş, 4-ü isə bürüncdür.

Sonra Şərur və Kəngərli rayon boks bölmələrinin məşqçiləri Rasim İsgəndərovun və Elşən Qubuşovun çıxışları dinlənilib.

Gənclər və İdman nazirinin müavini Məcid Seyidov çıxışında vurğulayıb ki, muxtar respublikamızda idman və idmançılara hərtərəfli dövlət qayğısı nəticəsində gənc və yeniyetmələrin idmanın müxtəlif növlərinə marağı günü-gündən artmaqdadır. Nazirlik bu məqsədlə muxtar respublika ərazisində yaradılan bütün idman federasiyaları ilə birgə fəaliyyət göstərir və bu sahədə dövlət siyasətinin tənzimlənməsini həyata keçirir. Boks idman növü ötən il muxtar respublikanın idman həyatında kütləviliyi və qazanılan uğurları ilə idman ictimaiyyətinin diqqət mərkəzində olub. Gənclər və İdman Nazirliyi muxtar respublikamızda 2002-ci ildə yaradılan Boks Federasiyası ilə birgə idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi üçün çoxsaylı tədbirlər həyata keçirib. Belə ki, il ərzində bu idman növü üzrə bir muxtar respublika səviyyəli birincilik, 6 Naxçıvan şəhər, 4 rayon birinciliyi, 2 yoldaşlıq görüşü təşkil edilib. Nazirliyin və federasiyanın birgə fəaliyyəti nəticəsində idmançıların muxtar respublikadan kənarda keçirilən yarışlarda da iştirakları təmin olunub. Nəticədə, idmançılar ölkə və beynəlxalq səviyyəli yarışlarda uğurla çıxış ediblər.

Yığıncaqda Boks Federasiyası tərəfindən tərtib olunan "Boks, brek, stop" adlı kitabın da təqdimatı olub.

Sonra il ərzində fərqlənən idmançılar mükafatlandırılıb.

Yığıncağa yekun vuran Gənclər və İdman nazirinin müavini məşqçi-müəllimlər və idmançılar adından yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

## "Elektron müraciət qaydaları" mövzusunda tədbir



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri qəbul edən və onlara xidmət göstərən tərəflərlə "Elektron müraciət qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə çıxış edən xidmətin Təşkilat-nəzarət şöbəsinin rəisi, I dərəcəli miqrasiya xidməti qulluqçusu Zakir Məmmədov bildirib ki, bu gün muxtar respublikada çoxcəhətli tərəqqi, eləcə də turizmin kompleks şəkildə və davamlı inkişafı, ən önəmlisi təhlükəsizliyin mütləq surətdə qorunması əcnəbi və vətəndaşlığı olmayan şəxslərin məqsədlərlə bu diyara gəlmələrinə geniş imkanlar yaradıb.

Xidmətin əməkdaşı Qiyas Paşayev diqqətə çatdırıb ki, bu gün Dövlət Miqrasiya Xidmətində müasir standartlara cavab verən texniki avadanlıqların quraşdırılması və elektron xidmətlərin göstərilməsi məqsədilə mərkəzi server sisteminə qoşularaq Naxçıvan Muxtar Respublikası "Elektron hökumət" portalına inteqrasiya olunması əhaliyə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətləri daha da müasirləşdirilib, asanlaşdırılıb.

Qiyas Paşayev əcnəbilərin olduğu yer üzrə qeydiyyatı və inzibati məsuliyyəti ilə bağlı elektron müraciət qaydalarının əhəmiyyətindən danışaraq məlumatları slayd vasitəsilə əyani şəkildə nümayiş etdirib.

Sonra muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxana nümayəndələri keçirilən bu cür maarifləndirmə tədbirlərinin vacibliyini vurğulayıblar.

Qarşılıqlı diskussiya şəklində davam edən müzakirələr zamanı tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, maarifləndirmə bukletləri təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi
## *2020-2021-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Hüquqşünaslıq ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında Hüquqşünaslıq ixtisası üzrə əyani təhsilə 175 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci il avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 31-dən mart ayının 3-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*
- *təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*
- *yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*
- *ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*
- *oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*
- *9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

*Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155,156,160).*

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 9 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərindən bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə; qaçış 100 metr məsafəyə – 17 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə) verməli, nazirliyin seçmə komissiyasından, habelə tibb xidmətinin xüsusi həkim komissiyasında müayinədən keçməlidirlər.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust-14 sentyabr 2020-ci il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddəti kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara Hüquqşünaslıq ixtisası, polis leytenantı xüsusi və ehtiyatda olan leytenant hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

*Ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin Polis Akademiyasının www.pa.edu.az internet saytında yerləşdirilmişdir.*

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi
## *2020-2021-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında İnformasiya təhlükəsizliyi ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında İnformasiya təhlükəsizliyi ixtisası üzrə əyani təhsilə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci il avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 31-dən mart ayının 3-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*
- *təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*
- *yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*
- *ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*
- *oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*
- *9 x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

*Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155,156,160).*

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərindən bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, nazirliyin seçmə komissiyasından, habelə tibb xidmətinin xüsusi həkim komissiyasında müayinədən keçməlidirlər.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı I ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilməkdir. Abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust-14 sentyabr 2020-ci il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara 050615 – informasiya təhlükəsizliyi ixtisası, polis leytenantı xüsusi və ehtiyatda olan leytenant hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Dövlət qulluqçusu istifadəsində olan dövlət əmlakından necə istifadə etməlidir?***

***Cavab:*** "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu istifadəsində olan dövlət əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompüter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlıqlarından qənaətlə və səmərəli istifadə etməlidir.

Dövlət qulluqçusuna dövlət əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompüter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlıqlarından şəxsi maraqları naminə, habelə həmin dövlət qulluqçusu tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etməsi qadağandır.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### *İtmişdir*

Heydər Əliyev prospekti bina 3, mənzil 53-də yaşamış Babayeva Nərgiz Qurban qızının adına 18 oktyabr 2007-ci il tarixdə verilmiş 6504 inventar nömrəli texniki pasport və MH-0005521 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Mahmudkənd sakini Məmmədov Mustafa Heydər oğlunun adına verilmiş JN-715$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayon Qahab kənd sakini Fərzəliyev Həmid Məcid oğlunun adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 97